

Rahil Məmməd

## VAQİF BƏHMƏNLİYƏ

...Qardaş, müdəram
Nə süddü, nə qatıqdı,
Nə kababdı, nə aşdı...
Mən adamla qidalanıram.
“Azuqə” şeirindən

“Azuqəm adamdı”, - deyib
Bizi xof içində tutma.
Sən adamyeyən deyilsən,
Sən Allah, bizi qorxutma.

Əlbət ki, vampir də deyil,
Əməlli-başlı şairsən.
Salmısan şairliyinə,
Sözü məcazi deyirsən.

Azdı ağıllı adamlar,
İfallı adamlar lap az.
Çoxdu cibkəsən oğrular,
Çoxdu xəbis, ağlıdayaz.

Sözüm yox ağıllı sözü
Saf su kimi içməyinə.
Ancaq inanmıram, düzü,
İfallı adam üstündən
Ayaq basıb keçməyinə.

Şair belə olmur, qardaş,
Dərdi dərdə qatan olur.
Harda bir dərdli eşitsə,
İmdadına çatan olur.

Dərdlilərin göz yaşını
İçəndə alnın qırışır.
Həsrətliləri yeyəndə
Yadına doğmalar düşür.

Etdiyin yaxşılıqlarsa
Yadına düşməz bilirəm.
Yaxşı adamlarla sənin
Yolun kəsişməz bilirəm.

Bir vaxt Vətən darda ikən,
Başı buludlarda ikən
“Müxalifət vaxtı deyil”, -
Deyib onda haray çəkdin.

Yadımdadır həmin o ün,
O haray, səs yadımdadır.
Siyasət adamlarına
Verdiyin dərs yadımdadır.

Onda cavan olsan da sən,
İnandım böyüklüyünə.
İnandım müdrikliyinə.
O zamandan bilirəm ki,
Sən o sən deyən deyilsən.
Sən elə əsl şairsən,
Yox, adamyeyən deyilsən.

## İLLƏR YAMAN AMANSIZMIŞ

İllər yaman amansızmış,
İnsafsızmış həm də illər.
İtkin düşən gözəllikdən
indi necə tutum xəbər?
Hanı sənin gözəlliyin,
Gözlərinin odu hanı?
Sənin gənclik çağlarının
şirinliyi, dadı hanı?
İllər yaman amansızmış...

Yanağına kölgə salan
kirpiyinin çətri itib.
Sevənləri dərdə salan
saçlarının ətri itib...
Hanı sənin gözəlliyin?

İllər yaman amansızmış,
Əsib səmum yeli kimi.
Sovurub gözəlliyini
bir ocağın külü kimi.
Hanı alma yanaqların
təravəti?
Hanı lalə dodaqların
hərarəti?
Bu nə zülüm?!
O füsunkar gözəlliyin
hanı, gülüm?

İndi üsyanmı eyləyim
o illərə?
Dilə tutummu illəri?
Bəlkə, səndən qopardığı,
Uçuraraq apardığı
gözəlliyi versin geri.
Bəlkə, qisas alır bizdən
məni sənlə görüşdürən
zalım illər?
Duymamışıq o illərin
sevgi dolu ətrini biz.
Bilməmişik o illərin
qiymətini, qədrini biz.

İllər yaman insafsızmış,
Gözəlliyi səndən alıb.
Məni yaman dərdə salıb.
Nə yaxşı ki, tanımadın
məni bu gün,
Ötüb-keçdin.
Səbəb bəlli.
Demək səndən aldığını
illər həm də məndən alıb.
Mənim üçün bir təsəlli.
Baxışların qış günəşi,
Yox istisi, yox atəşi.

Eybi yoxdur, məni bu gün
tanımadan yanımdan keç.
Sənin üçün yazdığım bu
şeirdən də xəbərsiz ol,
Oxuma heç.
Bu yetər ki, xatirələr
ürəyinə dərd olmasın.
İllərdənsə iltimasım,
Bu qədər də sərt olmasın.
İllər yaman amansızmış!